*Əmrahov Mais İsrail oğlu,*
*tarix elmlər doktoru, professor,*
*AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu,*
*şöbə müdiri,*
*Email: emrahov@48 mail.ru,*

# II QARABAĞ - VƏTƏN MÜHARİBƏSİNƏ İCTİMAİ-SİYASİ VƏ MƏNƏVİ DƏSTƏK

**Ərazi iddiaları.** Ermənilər tərəfindən "Artsax Azadlıq müharibəsi" kimi tanınan I Qarabağ müharibəsi 1980-ci illərin sonlarından 1994-cü ilin mayına kimi Cənub-Qərbi Azərbaycanda yerləşən Qarabağ bölgəsində Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında baş vermiş etnik və ərazi münaqişəsidir (6). Qarabağın dağlıq bölgəsində münaqişəsinin yaranması Azərbaycanda milli şüurun yenidən oyanmasına səbəb oldu. Azərbaycanın ərazi bütövlüyü uğrunda başlanan kortəbii hərəkat tez bir zamanda milli-azadlıq hərəkatına çevrildi. Respublikada hadisələrin məcrasından çıxması və hadisələr üzərində nəzarətin itirilməsi ilə razılaşmayan Moskva 1990-cı il yanvarında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə qarşı çıxan Azərbaycan xalqını cəzalandırmaq ucun Qanlı Yanvar qırğınını törətdi. Növbəti qırğın hədəfi Xocalı seçildi.1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri, 1.890 nəfər şəxsi heyəti olan 366-cı alay, habelə xaricdən gətirilmiş muzdlular Xocalıya hücum etdilər. Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədildi. 613 nəfər, o cümlədən 106 qadın, 83 azyaşlı uşaq, 70 qoca öldürüldü, 1000-dən artıq dinc sakin şikəst oldu, 1.275 nəfər əsir götürüldü, 8 ailə tamamilə məhv edildi, 56 nəfər diri-diri yandırıldı. (4,s.133-134)

Xocalı hadisəsindən sonra da Ermənistan və Azərbaycan arasında gərginlik davam etdi, təmas xətti boyunca atəş insidentlərinin sayı çoxaldı. 2008-ci ilin mart ayında Ermənistan silahlı qüvvələri Tərtərdə hərbi təxribat törətdilər. 2010-cu il iyunun 18-19-da Çaylı yaxınlığında toqquşmalar baş verdi. 2014-cü il noyabrın 12-də Ağdam rayonunun Kəngərli kəndi yaxınlığında Azərbaycan silahlı qüvvələri ilə Ermənistan silahlı qüvvələri arasında gərginlik yarandı. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında baş vermiş **"Dördgünlük müharibə"** adlandırılan hərbi münaqişə Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələndi, bir sıra ərazilər düşməndən azad olundu (1). 2020-ci il iyulun 12-də günorta saatlarından başlayaraq Ermənistan Silahlı Qüvvələri yenidən Ermənistan-Azərbaycan dövlət sərhəddinin Tovuz rayonu sahəsində atəşkəs rejimini pozdular. **44 günlük Vətən Müharibəsinin başlanğıcı hesab edilən Tovuz döyüşləri** Azərbaycan əhalisi arasında ciddi narahatlığa səbəb oldu. 2020-ci il iyulun 12-də Ermənistan-Azərbaycan dövlət sərhəddinin Tavuş mərzi və Tovuz rayonu ərazilərində baş verən döyüşlərdə 16 əsgər həlak oldu. İyulun 14-də erməni ordusunun hücumu nəticəsində Azərbaycan Ordusunun **general-mayoru Polad Həşimov, polkovnik İlqar**

**Mirzəyev,** həmçinin hücumun qarşısını alarkən beş hərbi qulluqçu şəhid oldu. İyulun 14-dən 15-ə keçən gecə on minlərlə gənc Bakıda yürüş edərək Prezidentə və orduya dəstək nümayiş etdirdilər. Döyüşlərdən bir neçə saat sonra Bakıda şəhidləri qarşılamaq üçün küçələrə çıxmış insanlar şəhərin mərkəzinə "**Qarabağ bizimdir**" şüarı ilə yürüş etdilər. 2020-ci il sentyabrın 27-də səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, həmçinin hərbi mövqelərimizi atəşə tutdular (7, s.12).

**Müharibənin başlanması.** 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq, təmas xətti boyunca Azərbaycan Respublikasının mövqelərini, Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çiraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı, Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq - kəndlərini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından atəşə tutdular (7, s.12). Qarşıdurmalar qısa müddətdə sürətlə alovlandı və İkinci Qarabağ müharibəsinə çevrildi.

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət etdi (3, 2020, 27 sentyabr). O, bildirdi ki, ...Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var...Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikası sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür (7, s.12).

Sentyabrın 27-də səhər saatlarında Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən Ermənistanın törədə biləcəyi təxribatların qarşısını almaq üçün ölkə üzrə internetin verilişində bir sıra məhdudiyyətlər tətbiq olundu. Diasporla İş üzrə Dövlət Komitəsi xaricdə yaşayan azərbaycanlılara müraciət edərək, sosial şəbəkədə, elektron media və digər kütləvi informasiya vasitələrində rəsmi olmayan, dəqiqləşdirilməmiş və qeyri-obyektiv məlumatlardan istifadə etməməyə çağırdı.

**Müharibəyə siyasi və mənəvi dəstək.** Müharibənin ilk saatlarından Türkiyə, Pakistan, Əfqanıstan birmənalı şəkildə Azərbaycanı dəstəklədilər. BMT, İƏT, Qoşulmama hərəkatı, Avropa Parlamenti, ATƏT bizim mövqemizi dəstəkləyən bəyanatlar verdilər. (2, 2020, 2 oktyabr)

Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop, Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar Ermənistanın cəbhə xəttində törətdiyi genişmiqyaslı təxribatlarla bağlı açıqlamalarında Türkiyənin bütün gücü ilə Azərbaycanın yanında olmaqda davam edəcəklərini, sona qədər azərbaycanlı qardaşlarımızın yanında olacağını ifadə etdilər (3, 2020, 27 sentyabr).

Türkiyə Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin (TÜRKSAM) sədri Sinan Oğan Ermənistanın Azərbaycana qarşı başlatdığı yeni təxribat xarakterli hücumu şiddətlə qınayaraq işğal altındakı kəndləri və təpələri azad etməsi münasibətilə də Azərbaycan Ordusunu və xalqını təbrik etdi. (3, 2020, 27 sentyabr)

Türkiyə Böyük Millət Məclisində təmsil olunan hakim Ədalət və İnkişaf Partiyası (AKP), Cümhuriyyət Xalq Partiyası (CHP), Milliyyətçi Hərəkat Partiyası (MHP)

və İyi Partiyanın 14 iyul 2020-ci il tarixli dördlü bəyanatı tarixi hadisə kimi dövlətçilik tariximizə yazıldı. Türkiyə xalqı malı, canı və mənəvi dəstəyi ilə Azərbaycanın yanında olmaqda davam edəcəyini bildirdi (3, 2020, 27 sentyabr). Türkiyənin vətəndaş cəmiyyəti təşkilatlarının bəyanatını 73 təşkilat imzalamışdı (3, 2020, 2 oktyabr). 169 qazi və şəhid ailəsi üzvləri Azərbaycana dəstək bəyanatı qəbul etmişdilər (3, 2020, 2 oktyabr).

Xarici ölkələrdə yaşayan azərbaycanlıların bəyanatını Avropa Azərbaycanlıları koordinasiya şuraları adından 12 nəfə imzalamışdı. Avstriya, İsrail, Gürcüstan, Ukrayna, Rusiya, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkiyə, Avstraliya İttifaqı, Yeni Zelandiya, Misir Ərəb Respublikasında yaşayan azərbaycanlılar da bəyanatla çıxış etmişdilər. (3, 2020, 27 sentyabr)

Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-də davamlı olaraq həyata keçirdiyi növbəti hərbi təxribatlar səbəbindən bölgədə yaranmış hərbi qarşıdurma Türkiyənin aparıcı kütləvi informasiya vasitələri tərəfindən fasiləsiz olaraq işıqlandırlandırılırdı. Anadolu, İHA, DHA agentlikləri, TRT HABER, TÜRK HABER, A HABER, NTV və s. telekanallar, o cümlədən ölkənin aparıcı qəzetləri və xəbər portalları cəbhə bölgəsindəki vəziyyət barədə türkdilli tamaşaçıları və oxucuları məlumatlandırırdılar.

Ərəb ölkələrinin onlarla informasiya resursu – "əl-Vatan", "ən-Nəhar", "əl-Cəzirə", "əl-Harir", "Ruyanews", "Şuruknews", "əl-Diblumasi", "əl-Cəzair", "Radio əl-Cəzair" və digər xəbər agentlikləri, teleradioları, qəzetləri baş verən hadisələri obyektiv işıqlandırır, ictimaiyyəti bu barədə müntəzəm məlumatlandırırdılar.

Sentyabrın 27-də Yeni Azərbaycan Partiyası, Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti (3, 2020, 27 sentyabr) ordu ilə birgə olduğunu bəyan etdi. Respublika Rus İcması Şurası (3, 2020, 28 sentyabr) Ermənistanın bütün cəbhə xətti boyunca növbəti təxribatı ilə əlaqədar Azərbaycanın etnik rus vətəndaşları adından bəyanat yaydı. Bəyanatda Vətəni sonadək müdafiə etməyə hazır olduğu bildirilirdi! (3, 2020, 28 sentyabr)

Qafqaz Müsəlmanları İdarəsinin Azərbaycan xalqına müraciətində bütün azərbaycanlılar ümumi düşmənə qarşı bir səngərdə olmağa, yumruq kimi birləşməyə dəvət edilirdi. (3, 2020, 28 sentyabr).

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinə Azərbaycan Respublikasında yaşayan etnik icma rəhbərləri (3, 2020, 28 sentyabr), Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri və üzvləri, (3, 2020, 29 sentyabr) Ermənistanın təxribatları ilə bağlı bəyanat yaymışlar.

Müharibənin ilk saatlarından başlayaraq Türkiyə Cümhuriyyətinin Ankara, Kocaeli, Zonquldak şəhərindən, Niderland Krallığının Tilburq şəhərindən, Qazaxıstanın Almatı şəhərindən, İsrailin paytaxtı Təl-Əvivdən, Azərbaycan Respublikasının Şirvan, Gəncə, və Bakı şəhərlərindən, Biləsuvar və Masallı rayonlarından, Qarabağ müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Goranboy Rayon Filialından daxil olan məktublarda cəbhədən gələn xəbərləri səbirsizliklə gözlədikləri ifadə olunur, Azərbaycan Ordusu və Azərbaycan Prezidenti ətrafında sıx birləşdikləri

və orduya dayaq olacaqları bildirilirdi. (3, 2020, 2 oktyabr)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 44 günlük Vətən müharibəsi dövründə dünyanın 30-a yaxın televiziya və mətbuat orqanlarına, o cümlədən 2020-ci il sentyabr ayının 29-da "Rossiya -1", sentyabrın 29-da "Rossiya 1" telekanalında yayımlanan "60 dəqiqə" proqramına, oktyabr ayının 2-də "Əl-Cəzirə", oktyabrın 5-də Türkiyənin "TRT Haber", oktyabr ayının 6-da Rusiyanın "Perviy Kanal" telekanallarına, oktyabrın 9-da "CNN İnternational" televiziya kanalının *"Conneot the World*" verilişinə, oktyabrın 10-da Rusiyanın RBK, oktyabrın 12-də Türkiyənin "Haber Qlobal", oktyabrın 14-də "France 24" telekanallarına, oktyabrın 21-də Yaponiyanın "Nikkel" qəzetinə, oktyabrın 28-də İtaliyanın "Rai-1" televiziya kanalına, noyabrın 2-də İtaliyanın "La Respublika" qəzetinin müxbirinə verdiyi müsahibələrində beynəlxalq ictimaiyyəti Azərbaycanın haqq işinə inandıra bildi.

Azərbaycan Ordusunun cəbhədəki uğurlarını, Azərbaycan Prezidentinin dünyanın aparıcı televiziya kanallarına verdiyi müsahibələri və müraciətlərini diqqətlə izləyən ölkə vətəndaşları, həmçinin xaricdə yaşayan soydaşlarımızın Azərbaycan Prezidentinə, Ali Baş Komandana göndərdikləri məktublarda Prezident İlham Əliyevin nümayiş etdirdiyi "konspektsiz" sərbəst nitq, analitik təhlil mədəniyyəti, problemə kompleks yanaşmaq istedadı, ümumiləşdirmə və proqnozlaşdırmaq məharəti dövlət başçımızın dünya liderləri sırasında fərqli bir təfəkkür sahibi kimi dəyərləndirilir, Azərbaycanda çoxcəhətli dialoqlar üçün formalaşdırılan mühit yüksək qiymətləndirilirdi. Münxen Təhlükəsizlik Konfransı çərçivəsində dövlətimizin başçısı ilə görüşü zamanı Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Vladimir Norovun bildirmişdi ki, "bu gün Azərbaycan müşahidəçi ölkələr üçün nümunə olaraq dialoq üzrə ən fəal tərəfdaşlardan biridir". (5)

Dövlətimizə, xalqımıza bu haqq işində, şərəfli mübarizədə zəfər arzulayan ölkələr, beynəlxalq təşkilatlar, qeyri-hökumət təşkilatları, ictimai qurumlar, xarici ölkələrdə yaşayan azərbaycanlılar və respublika vətəndaşları Azərbaycan Ordusuna və Azərbaycan dövlətinə ictimai-siyasi və mənəvi dəstək göstərirdilər.

Beləliklə qeyd olunanları ümumiləşdirərək deyə bilərik ki, 44 günlük II Qarabağ - Vətən müharibəsində Azərbaycanın qələbəsini ön və arxa cəbhədə bir sıra amillər təmin etdi. Birinci amil 27 sentyabrda başlanmış 44 günlük Vətən müharibəsində Azərbaycanın qələbəsini şərtləndirən, Zəfəri təmin edən başlıca faktor Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin vaxtında müəyyənləşdirdiyi düzgün döyüş strategiyası oldu. İlham Əliyev Azərbaycanın haqq işinə mane olmaq istəyən və ermənilərə dəstək göstərən bir sıra xarici ölkə rəhbərlərinin zənglərini tutarlı arqumentlərlə, əsaslanmış müdrik cavabları ilə neytrallaşdırmağı bacardı. Sarsıdıcı zərbələr nəticəsində Ermənistan tərəfi məcbur olub acı məğlubiyyətlə razılaşdı (2, 2020, 30 sentyabr) .

44 günlük Vətən müharibəsində bizə qələbə qazandıran ikinci amil müzəffər ordumuzun əsgər və zabitləri oldu. Ölkəmizin igid, qəhrəman oğulları silaha sarılaraq Ali Baş Komandanın döyüş tapşırıqlarını yüksək səviyyədə icra etdi. Komandirlərimiz cəbhədə öndə gedərək əsgərlərimizdə böyük döyüş ruhu yarada bildilər. Nəhayət,

qələbənin təmin olunmasını şərtləndirən üçüncü amil ölkəmizdəki milli birlik, həmrəylik oldu. Siyasi baxışlarından, milli və dini mənsubiyyətindən asılı olmayaraq bütün xalq birləşərək Ali Baş Komandanın Dəmir yumruğuna çevrildi və düşməni döyüş meydanında məhv etdi.

44 günlük müharibə və 20 günlük müharibəsiz və itkisiz qalan torpaqların geri qaytarılması XXI əsrin qələbəsidir. Bununla da, Ermənistanın uzun illər boyu arzusunda olduğu Dağlıq Qarabağın statusu məsələsinə, "qaçqın", "köçkün" kəlmələrinin gündəmdə işlədilməsinə son qoyuldu. Torpaqlarımız uğrunda aparılan müharibənin ilk günlərindən söylənilən "Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! deyimi 44 gündə reallığa çevrildi. Son 200 illik tariximizdə Prezident İlham Əliyev yeganə şəxsiyyət, ilk liderdir ki, itirilmiş, düşmən tərəfindən işğal olunmuş ərazilərin azad edilməsinə və xalqa qaytarılmasına nail oldu.

44 günlük müharibə Şuşa əməliyyatı ilə dünya hərb tarixinə qızıl hərflərlə düşdü. Noyabrın 10-a qədər davam edən döyüşlər Ermənistan Respublikasının kapitulyasiyası ilə başa çatdı**.** Noyabrın 10-da gecə saat 3.00 radələrində Rusiya və Azərbaycan prezidentləri Vladimir Putin və İlham Əliyev hərbi əməliyyatların dayandırılması haqqında 9 bənddən ibarət Bəyanatı imzaladılar. Bəyanatın Ermənistanın baş naziri N.Paşinyanın da imzaladığı bildirildi.

**44 günlük savaşda uğur qazanılmasında qardaş Türkiyə çox önəmli və əvəzolunmaz rolu oynadı**. Azərbaycan-Türkiyə birliyi Türkiyə rəsmilərini fəallığı ilə yekunlaşmadı, ən böyük dəstək Türkiyə xalqından gəldi. 44 günlük qələbəyə Azərbaycanla yanaşı Türkiyə də imza atdı. Azadlıq aşiqi, hər sətri ilə millətin vətən sevgisinə sevgi qatan, "*yoxdur millətimin imzası imzalar içində"* deyən Məhəmməd Hadi, ruhun şad olsun, millətinin imzası həm dövlətlər içində, həm də xalqlar içində vardır, özü də elə bir imzadır ki, onu təcavüzkarlar görəndə müvazinətini itirir. Bu imza XX əsrdə Mustafa Kamal Atatürk və Heydər Əliyev imzası, XXI əsrdə Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev imzasıdır. Bu imzanın arxasında Mustafa Kamal Atatürk və Heydər Əliyev dühası, Rəcəb Tayyib Ərdoğanın qətiyyəti və İlham Əliyevin "Dəmir yumruğu" dayanır.

## İstifadə olunmuş ədəbiyyat:


1. Aprel döyüşləri //https://az.wikipedia.org/wiki/Aprel_d%C3%B6y%C3%BC% C5%9Fl% C9%99ri

2."Azərbaycan ordusu" qəzeti, 2020, 27 sentyabr- 10 noyabr.

3. Xalq qəzeti, 2020, 27 sentyabr - 10 noyabr.

4. Xocalı soyqırımı-1992 (sənədlərdə, faktlarda və mətbuatda), Bakı "Əbilov, Zeynalov və oğulları" Nəşriyyat Poliqrafiya evinin mətbəəsi, 2006, 192 s.

5. İlham Əliyevin ibrətamiz tarix dərsi və diplomatiya mesajı https://nuhcixan .az/news/siyaset/26179-ilham-eliyevin-ibretamiz-tarix-dersi-ve-diplomatiya-mesaji

6. Qarabağ müharibəsi//https://az.wikipedia.org/wiki/Qaraba%C4% 9F_m%C3% Bcharib%C9% 99si

7. Zəfər Yolu: Qarabağ savaşından Şuşa Bəyannaməsinədək. Bakı: "Elm", 2012, 904 s.